**Vergilərin elektron qaydada ödənilməsi**

Dövlət orqanları tərəfindən əhaliyə elektron xidmətlərin göstərilməsi çevik və səmərəli idarəetmənin təmin edilməsi, şəffaflığın artırılması və korrupsiyaya şərait yaradan halların aradan qaldırılması üçün müstəsna əhəmiyyət daşıyır. Azərbaycan Respublikası Prezidentinin «Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında» fərmanından irəli gələn vəzifələr işığında Vergilər Nazirliyi tərəfindən vətəndaş cəmiyyətinə, biznes strukturlarına göstərilən elektron xidmətlərin çeşidinin və həcminin artırılması sahəsində bir sıra zəruri tədbirlər həyata keçirilmişdir. Bunlardan biri də Vergilər Nazirliyi ilə Mərkəzi Bankın birgə həyata keçirdikləri vergi və rüsumların elektron ödəniş sisteminin yaradılmasıdır. Artıq layihə üzrə bütün texniki işlər başa çatdırılmış, sistem cari ilin aprel ayından vətəndaşların istifadəsinə verilmişdir. Bu günə qədər 83138 elektron ödəniş həyata keçirilmişdir ki, bunun da nəticəsində 51385,2 min manat vəsaitin dövlət büdcəsinə ödənilməsi təmin edilmişdir.

***«Hökumət ödəniş portalı» yaradılır***

Vergi, rüsum, cərimə, icarə haqqı və digər büdcə ödənişlərinin Milli Ödəniş Sisteminin bütün ölkəni əhatə edən geniş infrastrukturu vasitəsilə toplanılmasının təmin edilməsi üçün KÖMİS sistemində «Hökumət ödəniş portalı»nın yaradılması istiqamətində Mərkəzi Bank tərəfindən digər dövlət qurumları, o cümlədən Vergilər Nazirliyi ilə intensiv iş aparılır. İlkin mərhələdə Vergilər və Maliyyə nazirliklərinin fəal iştirakı ilə toplanılması təmin edilən vergi və tədiyyə növlərinin 90 iqtisadi təsnifat kodu üzrə ödənişlərinin «Hökümət ödəniş portalı» vasitəsilə toplanması təmin edilmişdir.

«Hökumət ödəniş portalının yaradılması» layihəsi Azərbaycan Mərkəzi Bankının sifarişi ilə CMA Small System və SINAM şirkətləri tərəfindən həyata keçirilir. Portalın yaradılmasında əsas məqsəd respublika iqtisadiyyatında nağdsız ödənişlər dövriyyəsinin genişləndirilməsi, büdcə ödənişləri prosesinin sadələşdirilməsi, həmçinin e-hökumətin yaradılması çərçivəsində reallaşdırılan layihələrin milli ödəniş sisteminin infrastrukturu ilə inteqrasiyasıdır. Layihə çərçivəsində hazırkı KÖMİS sisteminin texniki aspektlərinin təkmilləşdirilməsi, həmçinin ölkədə həyata keçirilən «elektron hökumət» konsepsiyası çərçivəsində yeni funksional imkanların yaradılması planlaşdırılır.

KÖMİS sistemi 2008-ci ildən müvəffəqiyyətlə işləyir və hal-hazırda kommunal ödənişlərin (elektrik enerjisi, qaz, su), yol hərəkəti qaydalarının pozulmasına görə cərimələrin, sosial sığorta, həmçinin vergi ödənişlərinin qəbulunu həyata keçirir.

Mərkəzi Bankın klirinq sistemi ilə inteqrasiya sayəsində ödənişlər real vaxt rejimində həyata keçirilir. Sözügedən sistem vasitəsilə ödənişlər bütün sistemə qoşulmuş bank və «Azərpoçt» şöbələrində, həmçinin plastik bank kartları ilə bankomatlarda da qəbul olunur. Bundan əlavə, internetlə, yəni www.apus.az saytı vasitəsilə də məsafədən ödəniş etmək imkanı yaranıb.

Sistemdə ödənişlərin arxivinə nəzər yetirmək və ödəniş qəbzlərini çap etmək olur, həmçinin ödəniş qəbzlərinin vergi ödəyicisinin elektron ünvanına göndərilməsi funksiyası yerinə yetirilir.

www.apus.az saytındakı məlumata əsasən, bu günə kimi KÖMİS sisteminə 58 qurum qoşulub ki, onlardan 46-sı maliyyə təşkilatlarıdır. Sistemə 4 milyondan çox abunəçi haqqında məlumat yüklənib, qeydiyyatdan keçmiş istifadəçilərin sayı isə 65 minə çatıb. Hər ay sistem vasitəsilə orta hesabla 42 milyon manat məbləğində 2 milyondan çox ödəniş həyata keçirilir. Sistemin işə başladığı andan indiyədək 53 milyondan çox ödəniş tranzaksiyası həyata keçirilib.

İstifadəçilər üçün yaradılmış yeni imkan sayəsində ödənişlər qəbul edilərkən büdcə təsnifatının, büdcə səviyyəsinin və büdcə təşkilatının kodu kimi rekvizitlər avtomatik rejimdə sistem tərəfindən müəyyənləşdirilir və ödəniş tranzaksiyasına əlavə edilir. Bununla da ödənişlərin qəbul edilməsi prosesi sadələşdirilərək baş verən səhvlərin sayı minimuma endirilir, eləcə də ödəniş tranzaksiyalarının Dövlət Xəzinədarlığı Agentliyinin daxili informasiya sistemində avtomatik emalı təmin edilir.

***Elektron ödənişin üstünlükləri***

Ödənişlərin elektron formada həyata keçirilməsi ilə, ilk növbədə, ödəyicilərin rahatlığı təmin olunur. Ödəyicilər vergi orqanına, banka və ya digər ödəniş məntəqəsinə getmədən istənilən yerdən və istənilən vaxtda ödənişləri həyata keçirə bilirlər. Elektron ödənişin tətbiqi ödəmənin

etibarlı və təhlükəsiz olmasına təminat verir. Beləliklə, elektron ödəniş sisteminin tətbiqi ölkədə vergi yığımını sürətləndirməklə bərabər, vergi orqanlarına vergitutma bazasını daha dəqiq müəyyən etməyə, vergidən yayınma hallarını minimuma endirməyə və nəticədə büdcə gəlirlərində vergi daxilolmalarının, ölkədə nağd dövriyyənin həcminin əhəmiyyətli dərəcədə artmasına zəmin yaradır.

Vergilərin elektron ödənişi üçün İnternet Vergi İdarəsinin «Onlayn ödəmə» xidməti yaradılaraq istifadəyə verilmişdir. Hazırda ödənişləri onlayn qaydada həyata keçirmək üçün 2 metoddan istifadə edilir.

Birinci metod - Vergilər Nazirliyinin www.taxes.gov.az internet səhifəsinin «E-xidmətlər» keçidini seçərək «İnternet Vergi İdarəsi»ndə (www.e-taxes.gov.az) «Giriş» düyməsini basmaqla «Sistemə giriş səhifəsi»ndə istifadəçi kodu, parol və şifrə daxil edilir (sistemə daxil olmaq üçün «e-İmza» kartından da istifadə etmək olar), «Bölmə» menyusunda «Onlayn Kargüzarlıq & e-VHF» haşiyəsini seçib həmin bölməyə daxil olaraq «Onlayn ödəmə» vasitəsilə vergi və rüsumların internet vasitəsilə ödənilməsi həyata keçirilir.

İkinci metod - VÖEN-i apus.az saytına daxil etməklə plastik kartdakı hesabdan elektron qaydada ödəniş etməkdir. Elektron ödəniş Vergilər Nazirliyinin «İnternet Vergi İdarəsi» portalı üzərindən aparıldıqda, məlumat bazasına əsasən, vergi ödəyicisinin mükəlləf olduğu tədiyyələrin təsnifat kodları və büdcəyə borcları barədə məlumat ekrana çıxarılır. Elektron ödəniş Mərkəzi Bankın saytı üzərindən aparıldıqda isə vergi ödəyicilərinə büdcəyə olan borcları barədə məlumat verilmir. Bu halda ödəyici bütün zəruri məlumatları özü müəyyənləşdirərək sistemə daxil edir. Elektron ödənişin aparılması başa çatdıqdan sonra bu barədə məlumat 30-40 saniyə ərzində Vergilər Nazirliyinə ötürülür. Vergi ödəyicisi ödəmənin nəticəsi barədə məlumatı çap edə və ya KÖMİS-ə qayıdıb həmin məlumatları öz «e-mail» ünvanına göndərə bilər.

Arzu İBRAHİMOVA